# Qazaxıstanın Qütb ulduzu - Abay

(başlanğıcı ötən sayımızda)

***“Balam yurdumda qalsın”, – nə deməkdir? Yığdığın var-dövlətin özündən sonra yiyəsiz qalacaq?! Öləndən sonra dünyada qalan malın dərdini niyə çəkirsən? Sən olmayandan sonra qalan var-dövlətin dərdi sənəmi qalıb? Yoxsa, yığdığın mal-dövlətin özgələrə qalmasındanmı qorxursan? Ölüb gedəndən sonra özündən sonra qalanlarınmı dərdini çəkirsən? Övladın yaxşısı şirin, yamanı yükdür. Haradan bilirsən ki, Tanrı sənə necə övlad verəcək? Özün bu dünyada azmı korluq çəkdin? Və yaxud da özün bu dünyada azmı pisliklər elədin? İndi bir bala doğuzdurub, onu da özün kimi əclaf böyütmək istəyirsən, onu da bu dünyanın pisliklərinə bulaşdırmaq istəyirsən?***

***“Məndən sonra balam ardımca “Quran” oxusun”, – deyirsən. Əgər bu dünyada yaxşı işlər görmüsənsə, sən öləndən sonra ardınca məgər “Quran” oxuyanın olmayacaq? Əgər pisliklər, yamanlıqlar etmisənsə, övladının oxuduğu “Quran” sənə nə verəcək? Sağlığında özün-özünə qazandırmadığını, öldükdən sonra oğlun necə qazandırsın?***

Axirətin üçün övlad diləyirsənsə, bu elə balana vaxtsız ölüm diləmək kimi bir şeydir. Əgər övladı bu dünyanın naz-neməti, toyu-bayramı, kefi üçün istəyirsənsə, onda de görüm, qazaxın elə bir övladı varmı, ata-anasının qayğısına qalıb, onlara dərd-qəm gətirməsin? Məgər sənin elə övladın ola bilərmi, sənin yurdundan elə oğul doğulubmu?!

Bəlkə fikirləşirsən ki, övladın qocalanda sənin qayğına qalacaq, yedirdəcək? – bu da boş xəyaldır. Hələ bir fikirləş, gör, o qocalığa çata biləcəksənmi? İkincisi, sən elə oğul böyüdə biləcəksənmi ki, qocalanda sənin qayğına qalsın? Üçüncüsü, əgər varın-pulun varsa, kim sənə baxmaz ki? Yox əgər mal-heyvanın olmasa, bəlkə onda fikirləşmək gərəkdir ki, görəsən axırın necə olacaq? Onu da bilmək olmur ki, övladın sənin mal-mülkünü artıracaq, yoxsa dağıdacaq? Yaxşı, deyək ki, Tanrı sənin dualarını eşidib, bir övlad verdi; sən ona yaxşı tər- biyə verə biləcəksənmi? Bilməyəcəksən..! Öz günahların azdır ki, hələ bir dünyaya övlad gətirib, onu da günahlarına ortaq edirsən? Əvvəla, övladını hələ körpə olanda əlində bir əşyanı gizlədib, onu “Ya ondadır, ya bunda”, - deyib, birinci özün aldadacaqsan. Hələ balacanı aldatdığına görə sevinəcəksən də... Sonra da balan başqalarını aldadacaq. Hərzə danışmaq öyrədib, nadicliyindən zövq alacaqsan. “Ona dəyməyin, inadkardır”, – deyib başın tumarlayacaqsan, tərəfini tutacaqsan. Mollanın yanına göndərəcəksən ki, yazıb-oxumaq öyrənsin, mollanın da pulunu kəsəcəksən. Təki övladın kiməsə hiyləgərlik və pislik etmək üçün yazı-pozu öyrənsin. Sonra da deyəcəksən ki, sən ətrafda olan uşaqlardan ən yaxşısısan, ürəyinə təkəbbür toxumu səpəcəksən, pis vərdişlərə öyrədəcəksən. Sənin verdiyin tərbiyə bu olacaqmı? Belə övladdan nə xeyir güdəcəksən?!

***Adamlar Tanrıdan mal-dövlət də diləyir. O mal-dövləti neyləyirsən axı? Tanrıdan istədinmi? – İstədin. Tanrı verdi, verdiyini almasınmı? Ulu Tanrı sənə mal-dövlət saxlamaq üçün qüvvət verdi. Sən isə Tanrının verdiyi güc-qüvvəti ancaq mal-dövlət yığmaq üçün, yoxsa ki, halal zəhmət üçün, elm üçün sərf edirsən? Unutma ki, Tanrı sənə güc-qüvvət, ağıl verdi ki, sən həm də oxuyasan, öyrənəsən. Sən isə onun verdiyi gücü kim bilir hansı boş işlərə sərf etdin...***

Kim deyir, ərinmədən zəhmət çəksən, tənbəllik bilmədən gecə-gündüz işləsən, ağıl işlətsən varlanmazsan? Birindən aldadıb alırsan, birindən qorxudub alırsan, birini də talayırsan? – Budurmu sənin gördüyün iş?

Tanrıdan belə dilək etməzlər! Bu abırını-arını satıb, quldurluq, dilənçilik etməkdir, şərəfsizlikdir. Yaxşı, deyək ki, lap elə bu yolla varlandın, çoxlu mal-heyvan qazandın. Heç olmasa, o qazandığını təhsil almağa sərf elə. Özün oxumursan, oğlunu oxut. Elmsiz nə “o biri dünya”, nə “bu dünya” var. Elimsiz qılınan namaz da, tutulan oruc da, gedilən Həcc də – bunların heç biri ibadət ola bilməz. Mən elə bir qazax görmədim ki, çapıb-talayıb gətirdiyi mal-dövlətin xeyrini görsün. Pis niyyətlə əldə etdiyin hər şey, pis işlərə xərclənər. Həmin malın yiyələri: “nə vaxtsa mənim də malım var idi” – deyib, yanıb-tökülər. O qədər kasıblaşarlar ki, çarələri dilənmək olar...

**1892**

## On birinci söz

Bu xalqın önəm verib gördüyü iş nədən ibarətdir? Onların iki məqsədi var: Öncəsi, oğurluq. – Oğru fikirləşir ki, çölə çıxıb, oğurluq edib, başını saxlayacaq. Çünki oğru hər zaman talamaqla mal-dövlətə yiyələnməyə çalışır. Bir də, məqam gözləyənlər var. Onlar da oğru ilə sənin arandakı davada sənin haqqını qoruyacağını deyib, oğrudan alır. Həm şikayətçidən, həm də oğrudan qazanır. Adi xalq da oğrudan şikayət edərək və ya oğruya atını sataraq, yaxud oğrunun sata bilmədiyi atını ucuz qiymətə alaraq, qazanmağa çalışır. İkinci tip fitnə-fəsad oyunçuları var ki, sənə yaxınlaşar, ağlının ucundan belə keçirmədiyin bir fikri beyninə salıb, həvəsləndirər, deyər: “Bu işi görsən, varlanacaqsan, bu işi görsən, güclü olacaqsan, bu işi görsən, öz qisasını alacaqsan, bu işi görsən, ünlü olub, ad qazanacaqsan” – vədləriylə öz yerində olan insanları çaşdırar və aldadarlar. Həmin saxtakarların şirin vədinə inanıb yoldan çıxan muxtarların yanında gəzərək, əslində öz mənfəətlərini güdər, aldanan muxtardan da qazanarlar.

***Özünü elin çoxbilən adamı kimi göstərən bəzi kişilər də: “Bu, çox gözəl fikirdir, bu işdə sənin yanında olacaq, səni dəstəkləyəcəyəm”– deyib bu vədlərə aldanan muxtarın malını dağıtmağa başlayar. Kəndin adi adamlarına da özünü misal çəkib: “Mənim bu qədər evim, varım, dövlətim var, söz yiyəsi, hörmət sahibiyəm, sənin sözünü deyib, sənin dəstəkləyəcəyəm”, -deyə bu məsələdə kim ona çox para verirsə, gecə-gündüz özünü həmin adamın yanında göstərib, şəxsiyyətini, kəndini, arvad-uşağını ayaqlar altına atar.***



***Özünü elin çoxbilən adamı kimi göstərən bəzi kişilər də: “Bu, çox gözəl fikirdir, bu işdə sənin yanında olacaq, səni dəstəkləyəcəyəm”– deyib bu vədlərə aldanan muxtarın malını dağıtmağa başlayar. Kəndin adi adamlarına da özünü misal çəkib: “Mənim bu qədər evim, varım, dövlətim var, söz yiyəsi, hörmət sahibiyəm, sənin sözünü deyib, sənin dəstəkləyəcəyəm”, -deyə bu məsələdə kim ona çox para verirsə, gecə-gündüz özünü həmin adamın yanında göstərib, şəxsiyyətini, kəndini, arvad-uşağını ayaqlar altına atar***

Bu oğurluq və fırıldaq adətləri aradan qalxsaydı, xalq özü öz qabiliyyəti və fərasəti ilə bildiyi işi görər, işləməyə başlardı. Varlı öz malına yiyə durardı, fağır və kasıblar isə ehtiyaclarını ödəmək üçün öz yolu ilə gedərdi, hər kəs adam kimi, gücü çatan qədər işləyib, gücü yetən qədər yaşayardı. İndi neyləyəsən ki, xalqın özü bu iki oğurluq işində ortaqdır, bunu kim düzəldəcək, kim aradan qaldıracaq? Bütün bunlara baxanda fikirləşirəm ki, sədaqəti və abır-həyanı itirmişik. Əlbəttə, oğurluğu tərgitsəydilər, hər şey asan ola bilərdi, əfsuslar olsun, bizimkilər ancaq saxtakarların sözünü dinləyir. – Onlara uyan varlıları kim bu yoldan saxalayacaq?..

**1891**

## On ikinci söz

İnsanın ibadətinin doğru və ya yalnış olmasına irad tutanlar bilməlidir ki, onun etdiyi ibadətdə yanlışlıq axtarmaq doğru deyil. Çünki o ibadət edən insan sidq – ürəklə özünü haqqa yaxınlaşdırır. Sidq-ürəklə ibadət edəndə yan- lışlıq axtarmağı düşünmək belə ayıbdır. Hətta bu haqqa tapınan insanlar etdikləri ibadəti tam mənasıyla anlamasa belə, bu barədə elmi bilikləri yoxdursa belə, onları qınamaq olmaz. Bu bir savabdır. Əgər ibadəti necə etməyin doğru olduğunu öyrənmək istəyərsə, o zaman iki şərt vardır ki, bunu mütləq bilməlidirlər. Birincisi imanı və etiqadı gücləndirmək gərəkdir. İkincisi isə: “öz ibadətimi özüm öyrəndiyim qədər edirəm”– deməkdənsə, bilmədiklərini də öyrənsə daha yaxşı olar. Bunu öyrənmək üçünsə dindən elmi cəhətdən kamil olan topluma başçılıq edən biri ona yol göstərməlidir. Hər kəs öyrənmədən, çatışmazlıqlarını tamamlamadan, bilə-bilə geridə qalırsa, öyrənməkdən vaz keçirsə, onu Tanrı bağışlamaz, ibadətləri qəbul olmaz. Amma və lakin hər kim ki, imanını necə kamilləşdirdiməyin yollarını bilmədən, çatışmazlıqlarının nədən ibarət olduğunu dərk etmədən, təkcə başına əmmamə qoyub, namaz qılan, oruc tutan, məclislərdə imandan danışaraq, dinin əsil mahiyyətinin bilməyib, duaların yerini səhv salırsa, elə bilməsin ki, bununla o Tanrının onun könlünü xoş edəcək. Mühafizəsiz və şüursuz iman sağlam ola bilməz. Özünü “İhlas” oxumaqla böyük din alim saymaq dini yaşatmaq deyil, dini yaşatmaq üçün qeyrət göstərmək gərəkdir.

Fürsətcil dindarların imanına da şübhə haqımız var.

**1892**

## On üçüncü söz

İman dediyimiz, Ulu Yaradanın şərikisiz, şübhəsiz birliyinə, varlığına və bizə Peyğəmbərimiz (s.a.v) vasitəsilə göndərdiyi hər cür vəhyə və söylədiklərinə boyun əyib, inanmaqdır. Bu imana sahib olmağın iki yolu var: əvvəla, Yaradanın hansı əmrinə iman edilirsə, iman edən onun vacibliyinə ağılla dəlil tapacaq, ağlı bu deyiləni qəbul edirsə, deyirlər, imanı kamildir. İkincisi isə kitabdan oxuyaraq, ya da mollaların moizələrindən dinləyərək iman edib, nəticə çıxardığına da sağlam bir ruhla bağlanmalıdır. Birisi onu öldürməklə qorxutsa belə, min kişi, min cürə təhdid etsə də, buna görə könlündə tutduğu yolundan dönməməli və kənar təlaütümləri könlünə yaxın qoymamalı, könlündə bir qala tikib, sağlam olmalıdır. Belə imana təqlidi iman deyilir.

***Özünü imanlı saxalamaq üçün hər şeydən öncə köksünün altında yanar ürəyin, azad ruhun və öz gücünə inamın olmalıdır. “Kamil imanı var” deməklə elmi olmayan, “təqlidi imanı var” demək üçün qərarı olmayan, aldadana və ya yol azdırana, yaxud da öz mənfəətinə görə ağa qara, qaraya ağ, yalana doğru deyən dırnaqarası iman sahiblərinə nə deyəcəyik? Deyin ki, bizi belələrindən Tanrı özü qorusun! Hər kəs bilməllidir ki, yuxarıda yazdığım iki cür imandan başqa iman yoxdur. Hər bir kəs bilməlidir ki, iman insanın qəlbində, əməlindədir. Əsil iman və inam yuxarıda yazdıqlarımdadır.***

***Dini əlində rəhbər turub, Yaradanı və bəndəni aldadanlar bilməlidir ki, onların bu etdikləri Tanrı tərəfindən cəzasız, cavabsız qalmır. Onlar bağışlanmayacaq! Bu, Ulu Tanrının və Peyğəmbərimizin şəfaətinə və əfvinə uyğun deyil.***

***“Qılıncın üstünə and içilməz”, “Tanrı gunahları bağışlayandır” – kimi yalançı fikirləri yayan bəndənin isə üzü qara olsun, bunu öz faydaları üçün deyənləri isə Tanrı tərəfindən ən böyük cəza gözləyir.***

**1892**

(davamı gələn sayımızda)

**Azərbaycan türkcəsinə uyğunlaşdıran:**
**Aida EYVAZLI GÖYTÜRK**